# Qarabağın bərpasını daha da sürətləndirəcək sərəncam



***Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli Sərəncamı Qarabağ və Şərqi Zəngəzurda tikinti-quruculuq işlərini daha da sürətləndirmək məqsədi daşıyır. Sənəddə bildirilir ki, hazırda işğaldan azad edilən ərazilərin yenidən qurulması, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafın gerçəkləşdirilməsi, həmin torpaqlarda ən müasir infrastrukturun yaradılması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin reallaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr isə həmin yerlərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsinə və iqtisadi inkişafına əsas verir.***

Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı, ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və nəhayət, dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdət təşkil edən tədbirlərlə dəstəklənməsi zərurətini də qarşıya çıxarır.

Sərəncamda bütün bunlar nəzərə alınaraq, işğaldan azad edilən ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və səmərəli istehsal, ticarət və xidmət infrastrukturunun qurulması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin, habelə stimullaşdırıcı mexanizmlərin hazırlanması, həmçinin sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə Nazirlər Kabinetinə üç ay müddətində müvafiq təkliflər hazırlayıb dövlət başçısına təqdim etmək tapşırılıb.

Xatırladaq ki, sərəncamda:

– işğaldan azad edilən ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin, həmçinin xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi;

*(ardı 2-ci səhifədə)*

# Qarabağın bərpasını daha da sürətləndirəcək sərəncam

*(əvvəli 1-ci səhifədə)*

–özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyənləşdirilməsi;

–istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyənləşdirilməsi;

–müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilən ərazilərə cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi;

–bu ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və sözügedən istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi;

–ekoloji təmiz texnologiyaları tətbiqi əsasında "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi;

–yaşayış massivlərinin inşası ilə bağlı dövlət–özəl sektor tərəfdaşlığının inkişafı kimi təkliflər yer alıb.

Göründüyü kimi, Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli sərəncamı bir daha təsdiq edir ki, azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası respublika iqtisadiyyatına müsbət təsir göstərəcək, artımı şərtləndirəcək.

Yeri gəlmişkən, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov KİV-ə məlumatında düşməndən təmizlənən torpaqlarda tikinti-quruculuq işlərini daha da sürətləndirmək üçün hazırda tədbirlər planı hazırlandığını bildirib. O, eyni zamanda, bu zonada görülən işlərdən bəhs edərkən, deyib: "Zəngilan rayonunun Ağalı kəndində pilot layihə olan "Ağıllı kənd" qabaqcıl texnologiyalar əsasında uğurla qurulur. Burada məskunlaşacaq ailələr üçün təlimlər keçirilib və yaxın zamanlarda ilk qrupun ora köçürülməsi nəzərdə tutulur".






Xatırladaq ki, Zəngilan rayonunun Ağalı kəndində yaradılan "Ağıllı kənd"də innovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunan 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə həyata keçirilir. Kənddə ilkin mərhələ üzrə işlər yekunlaşmaq üzrədir.

Yaşayış sahəsində aqrar sektorun inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması da nəzərdə tutulur. Təsərrüfatda 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu malqaranın saxlanması üçün "Ağıllı idarəetmə sistemi"nə əsaslanan data və təhlil mərkəzinin də yaradılması planlaşdırılır.

Ağalı kənd sakinləri doğma kəndlərinə qayıdandan sonra, həmçinin Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. iqtisadi sahələr üzrə avadanlıqlarla təmin olunacaqlar.

Fizuli rayonunun Dövlətyarlı kəndində də sayca ikinci "Ağıllı kənd"in təməli qoyulub. Burada qurulacaq təsərrüfatların istehsal vasitələri, aqrotexniki və məsləhət informasiya xidmətləri ilə təmin edilməsi istiqamətində lazımı tədbirlər görülüb.

Onu da qeyd edək ki, işğaldan azad olunan torpaqlarda bütün yaşayış məntəqələri "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasına uyğun şəkildə qurulacaq. Bu isə həm kommunal xidmətlərə çıxış imkanlarını artıracaq, həm də sosial xidmətlərə əlçatanlığı genişləndirəcək. Nəticədə sözügedən inkişaf modeli sonrakı mərhələdə Azərbaycan iqtisadiyyatına daha böyük töhfə verəcək.

Qarabağın bir vaxtlar əsasən aqrar yöndə tanınan rayonlarında bu gün kənd təsərrüfatı ilə yanaşı, sənayeni də inkişaf etdirməyə mühüm önəm verilir. Ağdam Sənaye Parkının sürətlə yaradılması da məhz bundan xəbər verir. İlkin hesablamalara görə, yaxın perspektivdə bu sənaye parkına təqribən 20-25 milyon manat investisiya yatırılması gözlənilir.

Ağdam Sənaye Parkı əlverişli coğrafi mövqeyi, dayanıqlı inkişaf imkanları, gələcəkdə yük axınlarının istiqamətləri və digər mühüm logistika potensialının mövcudluğu nəzərə alınaraq yaradılır.

Qeyd edək ki, Ağdam Sənaye Parkında qısa müddətdə xeyli iş görülüb. İki yüz hektara yaxın ərazini əhatə edən bu nəhəng sənaye obyektində artıq 74 hektar (birinci mərhələ) ərazi minadan təmizlənib. Tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədi ilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kV-luq elektrik xətti çəkilib və 630 kV-luq transformator məntəqəsi quraşdırılıb.

Sənaye Parkına potensial investorların cəlb olunması istiqamətində də tədbirlər həyata keçirilir. Bu məqsədlə indiyədək dörd müəssisə ilə aparılan danışıqlar artıq başa çatmaq üzrədir.

Parkda rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, aptek, mağaza və yeməkxana yaradılıb, əraziyə asfalt yol, su xətti çəkilib, işıqlandırmada günəş enerjisindən qidalanan panellərdən istifadə edilib.

Sənaye parkının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarların burada qeydiyyata alındıqları vaxtdan başlayaraq 10 il müddətinə fəaliyyətləri ilə bağlı əldə etdikləri gəlirlərinə görə mənfəət (gəlir), əmlak, torpaq vergilərini, idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə ƏDV-ni ödəməkdən azad olunmaları nəzərdə tutulub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 12 dekabr.- S.1;2.